# Prezident İlham Əliyev Şəki Sərhəd Dəstəsinin "Laza" sərhəd zastavasında yaradılan şəraitlə tanış olub







Qəbələyə səfəri çərçivəsində Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev avqustun 10-da Dövlət Sərhəd Xidmətinin Şəki Sərhəd Dəstəsinin "Laza" sərhəd zastavasında yaradılan xidmət və məişət şəraiti ilə tanış olub.

Dövlət Sərhəd Xidmətinin rəisi, Sərhəd Qoşunlarının komandanı general-polkovnik Elçin Quliyev Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Bildirildi ki, sərhəd zastavası Böyük Qafqaz sıra dağlarının ən yüksək zirvəsi olan Bazardüzü istiqamətində fəaliyyət göstərir və dəniz səviyyəsindən 1600 metr yüksəklikdə yerləşir. Zastavanın mürəkkəb relyefə və soyuq iqlim şəraitinə malik xidməti ərazisində dövlət sərhədlərimizin mühafizəsi yüksək səviyyədə təşkil edilib.

Sərhəd zastavasının binasında ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin sərhəd qoşunlarının inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotolardan ibarət guşə yaradılıb.

Bildirildi ki, dövlət sərhədinin dağlıq ərazidə və səhra şəraitində etibarlı mühafizəsini təşkil etmək üçün lazım olan müvafiq texniki vasitələr, müasir avadanlıqlar və silahlar alınaraq zastavada yerləşdirilib. Xidmətin yüksək səviyyədə aparılması üçün sərhədçilər Qarabağ atları ilə və xüsusi təlim keçmiş itlərlə təmin olunublar.

Yeni layihə üzrə tikilmiş sərhəd zastavasında xidmətin və yaşayışın yüksək səviyyədə təşkili üçün hər cür şərait yaradılıb, müasir tələblərə cavab verən əsgər yataqxanası, yeməkxana, istirahət guşəsi, idman zalı, təlim şəhərciyi, müasir tələblərə cavab verən xüsusi təyinatlı binalar inşa olunub. Zabit, gizir və müddətdən artıq xidmət edən hərbi qulluqçuların ailələri üçün 22 mənzilli yaşayış binası tikilib.

Ərazidə abadlaşdırma işləri görülüb, yüksək zirvələrdə olan bulaqlardan çəkilmiş su xətti hesabına zastava içməli su ilə təmin edilib.

Bununla da Vətəninə, dövlətinə və Prezidentinə sadiqliyi ilə seçilən Azərbaycan sərhədçiləri sərhədlərimizin etibarlı mühafizəsinin təmin edilməsinə daim hazır olduqlarını bir daha göstərirlər.

**AZƏRTAC**